**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI
ELMİ-METODİKA ŞÖBƏSİ

Görkəmli şair, yazıçı, tərcüməçi, publisist
Rafiq Yusifoğlunun anadan olmasının
60 illiyi münasibətilə

# UŞAQ QƏLBİNİN NƏĞMƏLƏRİ
**(metodiki vəsait)**

**B A K I – 2 0 10**

**<u>Rafiq Yusifoğlu haqqında nə bilirik.</u>**

**"Əməkdar mədəniyyət işçisi", "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı uşaq kitabı", "Tofiq Mahmud" mükafatları laureatı, görkəmli şair, ədəbiyyatşünas, tərcüməçi, publisist Rafiq Yusifoğlu** 1950-ci il yanvar ayının 2-də Qubadlı rayonun Çardaxlı kəndində müəllim ailəsində anadan olmuşdur. Burada səkkizillik məktəbi, Qubadlı qəsəbə orta məktəbində onillik məktəbi bitirmişdir (1966). Təhsilini Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində davam etdirmişdir (1966-1970). Ali məktəbi müvəffəqiyyətlə bitirən şair öz taleyini gənclik şəhəri Sumqayıtla bağlamışdı. Şəhərin ən bacarıqlı müəllimlərindən biri kimi şöhrət qazanan Rafiq Yusifoğlu elmi və bədii yaradıcılığını daha da uğurla davam etdirmişdi. O, 1978-ci ildə Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olub, 1982-ci ildə oranı əla qiymətlərlə bitirmişdi. 1984-cü ildə görkəmli ədəbiyyatşünaslardan Yəhya Seyidov və Qasım Qasımzadənin rəhbərliyi ilə "Azərbaycan Sovet poemasının inkişaf problemləri" mövzusunda dissertasiya müdafiə edərək alimlik dərəcəsi almışdı. 2007-ci ildə isə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru adını almışdır.

1985-ci ildən 1992-ci elədək "Göyərçin" jurnalında şöbə müdiri, 1992-ci ildən 1996-cı ilədək məsul katib, 1996-1997-ci illərdə Azərbaycan Dövlət Televiziyasının "Xəbərlər" baş redaksiyasında "Elm, mədəniyyət, incəsənət" çöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1997-ci ildən "Göyərçin" jurnalının baş redaktorudur. Hazırda Sumqayıt Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasının professorudur.

Ədəbi fəaliyyətə hələ orta məktəbdə oxuyarkən başlamış, 1966-cı ildən şeirləri, məqalələri ilə mətbuatda çıxış etməyə başlamışdır.

Rafiq Yusifoğlunun uşaq ədəbiyyatı sahəsində xüsusi fəaliyyəti vardır. O, uşaq və gənclər ədəbiyyatı tənqidçiləinin Moskvada keçirilən üç ümumittifaq seminarında, Qazaxstanda keçirilən beynəlxalq uşaq ədəbiyyatı günlərində respublikamızın yazıçılarını, tənqidçilərini ləyaqətlə təmsil etmişdir.

Rafiq Yusifoğlu tərcüməçilik fəaliyyəti ilə də məşğuldur. Böyük ispan şairi Qarsia Lorkadan, Bayrondan, Peter Şyuttundan, Hans Yurgen Hayzendən, Ulla Handan, Roza Auslenderdən etdiyi tərcümələr dilimizdə çox gözəl səslənir. Əsərləri bir sıra dillərə tərcümə edilib, dərsliklərə düşmüşdür. Çoxlu mahnı mətnlərinin, müəllifidir. Əsərləri əsasında "Qəm karvanı", "Bütün Azərbaycan əsgər olmalı" televiziya tamaşaları çəkilib dəfələrlə nümayiş etdirilmişdir.

Rafiq Yusifoğlunun "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yer", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Bahar qatarı", "Çiçək yağışı", "Söz çəməni", "Dəniz səviyyəsi", "Zamanın qatarı","Daha uşaq deyiləm" və s. kitabları şap olunmuş və oxucuların stolüstü kitablarına çevrilmişlər.

Müasir ədəbiyyatımızın görkəmli nümayəndəsi şair Rafiq Yusioğlu daim axtarışda olan bir insandır. O, ali məktəb tələbələri üçün "Ədəbiyyatşünaslığın əsasları" və "Uşaq ədəbiyyatı" dərsliklərinin müəllifidir. "Ədəbiyyatşünaslığın əsasları" və "Uşaq ədəbiyyatı" dərslikləri çox faydalı, praktik əhəmiyyəti olan

əsərlərdir.”Ədəbiyyatşünaslığın əsasları” kitabında ədəbiyyatşünaslığın ümumi nəzəri prinsipləri, bədii əsərlərdə obrazlar sistemi, bədii əsərin strukturu, dili,ədəbi növlər və janrlar, şeir sənəti və onun qanunauyğunluqlarını şərh edir.

“Uşaq ədəbiyyatı” ümumi ədəbiyyatın ayrılmaz hissəsidir. Uşaqların maraq dünyasını genişləndirmək, uşağın gələcək dünyagörüşünün formalaşmasında, onun vətənə layiqli bir vətəndaş kimi böyüməsində uşaq ədəbiyyatının xidməti əvəzsizdir. “Uşaq ədəbiyyatı” dərs vəsaiti müəllifin mühazirələri əsasında hazırlanmışdır. Kitabda Azərbaycan və dünya uşaq ədəbiyyatının görkəmli nümayəndələri haqqında yığcam məqalələr, müəllifin əsərlərindən nümunələr daxil edilmişdir.

**Yubiley tədbirlərinin keçirilməsi.**

Bu il yanvar ayının 2-də Rafiq Yusifoğlunun 60 illiyi tamam olur. Yubiley ilə əlaqədar respublikamızın uşaq kitabxanalarında, xüsusilə uşaq və məktəb, lisey kitabxanalarında geniş tədbirlər hazırlanıb keçirilməlidir. Bu məqsədlə kitabxanalarda şairin həyat və yaradıcılığını, əsərlərini təbliq etmək üçün əyani və şifahi təbliğatın: kitab sərgiləri, səhərcik, ucadan oxu, oxucularla söhbət, oxucu konfransı, icmal, ədəbi-bədii gecə və s.formalarından istifadə edə bilərlər.

Kitabxanada kitab təbliğinin ən mühüm formalarından biri kitab sərgisidir. Bunu nəzərə alaraq kitabxanada şairin yubileyini bildirən sərgi təşkil olunmalıdır. Sərgidə şairin müxtəlif illərdə çap olunmuş kitabları, həmçinin onun haqqında çap olunmuş kitabiçi məqalələr, dövrü mətbuatda dərc olunmuş məqalələr nümayiş oluna bilər. Sərgilərə aşağıdakı başlıqları vermək olar:

1. **Rafiq Yusifoğlu- 60.**
2. **“Daha uşaq deyiləm...”**
3. **Uşaq dünyasının işığı.**
4. **“Məhəbbətdi imanım da, dinim də..”**

Sərgi və plakarların hazırlanmasına kömək məqsədilə Rafiq Yusifoğlu haqqında deyilən aşağıdakı sitatlardan da istifadə etmək olar.

**Görkəmli yazıçı və şairlərin R.Yusifoğlu haqqında sitatları.**

1. Rafiq Yusifoğlu Azərbaycan dilini gözəl bilən şairlərimizdəndi.

   Qabil
2. Rafiqdən Səhhət ətri gəlir, Şaiq ətri gəlir, Səməd Vurğun ətri gəlir.

   İlyas Tapdıq.
3. Hər addımında, hər dikəlişində, hər söylənişində Rafiq Yusifoğlunun başının üstündə Füzuli zirvəsinin zəhmi hiss olunur.

   Məmməd Aslan
4. Rafiq Yusifoğlu uşaq aləmini həssaslıqla müşahidə edən və hər bir şeirində ürəyə yatımlı müxtəlif kəşflər edən bir şairdir.

   Hikmət Ziya

Kitabxanalarda kitab təbliğinin formalarından biri də məktəbəqədər və kiçik yaşlı oxucular üçün ucadan oxudur. Bu tədbir uşaqların həm zehni, həm də nitqinin inkişafına böyük təsir göstərir. Şairin "Saat", "Küknar meşəsində yağış", "Su", "Araba". "Fayton" şeirləri balaca oxucular tərəfindən tez başa düşülən, qavranılan, oxunaqlı şeirlərdir. Kitabxanaçı bu şeirlərinin ucadan oxusunu hazırlaya bilər. "Araba". "Fayton", "Saat" şeirlərin ucadan oxusundan sonra kitabxanaçı oxuculara aşağıdakı suallarla müraciət edə bilər:

1. "Araba" şeirində uşaqlar nə istəyir?
   Arabanı odunla dolu görmək istəyir.
2. Uşaqlar odunu nə üçün istəyir?
   Qışda onun istisinə qızınmaq üçün.
3. "Keçmişin yadigarı" uşaqlar nədir?
   Fayton.
4. Gecə-gündüz , səs sala-sala işləyən nədir?
   Saatdır.

Şairin "Nağıllar aləmi" hekayəsindən kiçik yaşlı oxucular üçün səhərcik hazırlamaq daha maraqlı olar. Əvvəlcə kitabxanaçı Rafiq Yusifoğlunun həyat və fəaliyyəti haqqında oxuculara qısa məlumat verməlidir. Daha sonra yuxarıda qeyd etdiyimiz nağılın səhərçiyi təqdim olunmalıdır. Bu qısa hekayədə uşaqlar duyğu orqanlarının insan orqanizmində rolu haqqında məlumat ala bilərlər. Səhərciyi 6 uşaq arasında hazırlanır. Hər bir uşaq bir bədən üzvünün adından danışır. Səhərciyi təqdim edirik:

Ağız: Eh, mən omasam, gözəl-gözəl xörəklərin, şirniyyatların, mer-meyvənin dadını nə bilərdiniz?

Burun: Sən də söz danışdın da?! Öz kiçicik işini üfürüb filə döndərməkdə mahirsən. Ancaq mənim əməyimdəm bir kəlmə də olsa danışmırsan. Çiçəklərin, güllərin, mer-meyvənin, yer-yemişin ətrini bilmədən yaşamağın nə ləzzəti var?

Qulaqlar: Aman Allah, görün nələr eşidirik?! Biz olmasaq, çayların şırıltısından, bulaqların zümzüməsindən, quşların nəğməsindən xəbəriniz olardımı?

Gözlər: Əsas görməkdi. Üuz dəfə eşitməkdənsə bir dəfə görmək yaxşıdı. Mən olmasam, dünyanın gözəlliyindən xəbəriniz olardımı?

Əllər: Bəsdirin, siz nə danışırsınız, siz saçlara tumar çəkməyin, oxşamağın ləzzətini duymusunuzmu?

İnsan: Artıq incikliyə son qoyun.Əzizlərim, sizin hamınız doğru deyirsiniz. Mən ayrı-ayrılıqda hamınıza borcluyam. Ağzım olmasa dad, burnum olmasa qoxu, ətir bilmərəm. Qulaqlarsız kar, gözsüz kor, əllərsiz şikəst olaram. Sizin hamınıza borcluyam. Məni mən eləyən siz olmusunuz.

Səhərcikdən əlavə kitabxanaçı Rafiq Yusifoğlunun yaradıcılığı ilə oxucuları yaxından tanış etmək məqsədilə məktəbəqədər və kiçik yaş oxularla söhbət aparmaq da yerinə düşər. Söhbətin qısa məzmununu veririk:

"Rafiq Yusifoğlu öz dəsti-xətti ilə seçilən, oxucuların sevimlisinə çevrilən şairlərimizdəndir. Onun uşaqlar üçün yazdığı şeirlərlə yanaşı uşaqlar üçün yazdığı nağıllar da çoxdur. Bu nağıllar uşaqları sehirli aləmlə tanış edir onların zövqünü

oxşayır. Rafiq Yusifoğlunun son illərdə heyvanlara aid yazdığı nağılları diqqətimizi daha çox cəlb edir. Məsələn, “Balaca it”, “Dovşanla söhbət”, “Dovşan və tısbağa”, “Buynuz” və bir çox nağılları olduqca maraqlıdır. Uşaqlar siz bu nağılları oxuyun. Mən inanıram ki, siz bu nağılların qəhrəmanları ilə tanış olduqdan sonra onları sevəcəksiniz və öz yoldaşlarınıza oxumağı tövsiyə edəcəksiniz.”

Oxuculara Rafiq Yusifoğlunun əsərlərini geniş təbliği üçün kitabxanalarda şairlə görüşün təşkili yerinə düşər. İlk əvvəl kitabxanada, yaxın məktəblərdə görüşün keçirilməsi haqqında elan vurulmalıdır. Mötəbər qonaqlara isə dəvətnamə paylanmalıdır. Bundan sonra şairin kitabları oxuculara verilir ki, onlar görüşə yaxşı hazırlaşsınlar.

Görüş təyin olunmuş vaxtda şair kitabxanaya dəvət olunur və giriş sözünü kitabxananın direktoru açır. Sonra söz məruzəçiyə verilir. Məruzəçi şair haqqında ətraflı danışır.Məruzədən sonra oxucular müəllifin əsəri haqqında danışır və əgər şairə sualları varsa müraciət edirlər. Uşaqların çıxışından sonra söz şairə verilir.

Kitabxanada oxucular tərəfindən sevilən və həvəslə keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Yubileylə əlaqədar “Uşaq dünyasının işığı” adlı ədəbi-bədii gecə təşkil etmək olar. Gecədə şairin özünün, qələm yoldaşlarının və ədəbiyyat müəllimlərinin iştirakı gecəni daha maraqlı edər.

Giriş hissədə kitabxanaçı Rafiq Yusifoğlunun həyat və yaradıcılığı haqqında danışır, qonaqların çıxışları dinlənilir. Sonra bədii hissə başlanır. Bədii hissədə şairin şeirlərindən ibarət çıxışlar, hekayələrndən parçalar və yaxud tamaşalar göstərilə bilər. **“Daha uşaq deyiləm...”** ədəbi-gecənin ssenarisini təqdim edirik:

Səhnə zövqlə bəzənir. Görkəmli yerdən şairin portreti asılır. Səhnənin başqa tərəfində və əsərlərinin sərgisi yerləşdirilir. Aparıcılar əllərində şairin kitablarını vərəqləyərək səhnəyə daxil olur.

I aparıcı: Bizim kitabxanada
Nə kitab istəsən var.
Boş keçirmə vaxtını,
Gəl sən də kitab apar.
Maraqlıdır hamısı,
Oxumaqla doymazsan.

II aparıcı: Bir səhifə oxusan,
Heç əlindən qoymazsan.
Öyrənməli vaxtındır,
Körpə deyilsən daha.
Gəl sənə kitab verim,
Ancaq cırmayasan, ha!
Salam əziz dostlar, müəllimlər və qonaqlar! Əlimizdə vərəqlədiyimiz kitabın müəllifi, uşaqların çox sevdiyi “Göyərçin” jurnalının baş redaktoru Rafiq Yusifoğludur.

I aparıcı: Bu gün kitabxanamızda hörmətli şair-yazıçı, Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, şeirləri, hekayələri, əsərləri sevilə-sevilə oxunan, Rafiq Yusifoğlunun anadan olmasının 60 illiyinə həsr olunmuş ədəbi-bədii gecədə hər birinizi xoş gördük!

II aparıcı: Çox sevdiyimiz "Göyərçin" jurnalının baş redaktoru Rafiq Yusifoğlu öz gözəl, ürəyəyatımlı şeirləri ilə biz oxucuların rəğbətini çoxdan qazanmışdır. Şairin uşaqları dərin məhəbbətlə sevməsi, balacaların həyatını diqqətlə müşahidə etməsi şeirlərində həmişə öz əksini tapmışdır.

I aparıcı: Kiçik yaşlı uşaqlar üçün əsər yazmaq, maraqlı əsərlərlə onların zövqünü oxşamaq hər qələm sahibinə nəsib olmur. Lakin Rafiq Yusifoğlu illərdən bəri baş redaktoru olduğu "Göyərçin" jurnalı və uşaqlara həsr etdirdiyi kitabları ilə uşaq ədəbiyyatımızda öz yeri, öz nəfəsi və öz dəyəri olduğunu təsdiqləmişdir.

II aparıcı: "“Göyərçin”in kitabxanası" seriyasından çap oıunan şairin "Yollar", "Meymunlar ölkəsi", "Zamanın qatarı" və başqa dərgiləri balaca dostlarımıza ən yaxşı hədiyyədir. Uşaqlar hələ körpə vaxtlarından maşın oyuncaqla maraqlanırlar, uşaqların ən sevdiyi oyuncaq maşındır desək yanılmarıq. Məhz "Yollar" kitabı uşaqlarda yolun mahiyyəti haqqında təsəvvür yaradır, bu yollları çəkən maşın və insanlar haqqında söhbət açır.Gəlin balaca oxucumuzun ifasında "Maşının başı varmı" şeirini dinləyək.

(Şeir səslənir.)

I aparıcı: "Meymunlar ölkəsi" adlı tərcümə kitabında isə balaca oxucularımızın diqqətini çəkən maraqlı nağıl nümunələri toplanıb. Dünya xalqlarının nağıllarından doğma dilimizə tərcümə edən şairin duzlu-məzəli nağıllarında əsl uşaq dünyası vardır.

( "Tülkü və xoruz" fars nağılından hazırlanmış kiçicik tamaşa göstərilir. İki oxucu- biri tülkünü, digəri xoruzun sözlərini ifa edir. Sənhə arxasından nağıl aparıcı tərəfindən danışılır.)

Aparıcı: Biri var idi, biri yox idi, qədim zamanlarda qoca bir xoruz var idi. O, heç zaman tülkünün pəncəsinə keçməmiş, həmişə onu aldatmağa nail olmuş, ona görə də çoxlu ömür sümüşdü. Bir dəfə həmin xoruzun başı buğda dənləməyə qarışmışdı. Birdən başını qaldırıb gördü ki, az qala tülkü ona çatır. Xoruz bir təhər ağacın budağına qona bildi.

I oxucu (tülkü): Ey xoruz, nə üçün sən məni görən kimi uçub ağacın başına qondun?

II oxucu (xoruz): Könlündən keçirdi ki, qarşına qaçıb səninlə qucaqlaşım?

I oxucu (tülkü): Əlbəttə! Məgər sən heç nə edə bilmirsən? Padşah əmr edib ki, mənim məmələkətimdə heç bir heyvanın özündən zəifləri incitməyə ixtiyarı yoxdur. Bundan sonra qurdla quzu eyni bulaqdan su içəcək, göyərçinlə qırğı eyni yuvada yaşayacaq. Qorxma, arxayın aşağı düş, bir yerdə gəzək.

II oxucu (xoruz): Gəzmək yaxşı şeydir, ancaq ikilikdə yox. Gözlə o biri heyvanlar da gəlib çıxsınlar, birlikdə gəzək.Bax, burdan görünür. Uzaqdan heyvanlar bizə sarı qaçırlar.

I oxucu (tülkü): Hansı heyvanlardı bizə sarı qaçanlar?

II oxucu (xoruz): Qurda oxşayır, ancaq qulaqları və quyruqları bir az uzundur.

I oxucu (tülkü): Bələ onlar itlərdir?

II oxucu (xoruz): Bəlkə də... (Tülkü qaçır) Sən hara qaçırsan?

I oxucu (tülkü): Mənim itlərlə heç bir işim, alış-verişim yoxdur. Ona görə də gedirəm.

II oxucu (xoruz): Bəs sən demirdin ki, padşahın əmri ilə heç bir güclü heyvanın zəifi incitməyə haqqı yoxdur?

I oxucu (tülkü): Şah əmr verən zaman itlər orada deyildilər. əmrdən xəbərdar olmadığı üçün onlar məni parçalaya bilərlər.

Aparıcı: Tülkü bunu deyib, daha da bərkdən qaçmağa başladı. Xoruz isə ağacdan düşüb kəndə qayıtdı.

(Mahnı səslənir. Sonra kiçik yaçlı oxucu şairin "Bağçanın çiçəkləri" şeirini söyləyir).

Çoxlu dostum var
Mənim bağçada.
Nədənsə burda
Darıxmır adam.
Şeir deyirik,
Rəqs edirik biz.
Sevinclə dolur
Kiçik qəlbimiz.
- Əcəb bağçadır,
Çiçəyi hanı?
- Çiçəkləri də
Bizik bağçanın.

I aparıcı: Rafiq Yusifoğlunun yaradıcılığının böyük bir hissəsini uşaqlar üçün maraqlı şeir, nağıl-hekayə, povest yazmağa həsr etmişdir. Torpağa məhəbbət, uşaqlara məhəbbət, qayğı, dostluq, balacaların hazırcavablığı və onların kiçicik dünyası Rafiq şeirlərin qayəsidir. O, öz sözlərini uşaqların dilindən deməyə

çalışmış, onların maraqlı müşahidələrini şeirlərinin, hekayələrinin obyektinə çevirmişdir.

II aparıcı: Rafiq Yusioğlunun yaradıcılığında vətənə məhəbbət, torpağımıza, soykökümüzə məhəbbət güclüdür. Vətən torpağını qarış-qarış gəzən, onun hər bir guşəsinə yaxşı bələd olan şair təbiətin gözəlliklərinə biganə qala bilməmiş, bu gözəlliklər şeirlərə çevrilmişdir. Bu şeirləri oxuyanda insan Vətənimizin gözəlliklərinə yenidən vurulur.

(İki orta yaşlı oxucu şairin "Vətənin keşiyində" şeirini söyləyirlər)

Ən ucqar nöqtələrdən
Başlayır əziz vətən.
Qoymaram ki, yurduma
Gəlsin hər yoldan ötən.
Əsgər gərək vətənə
Həmişə keşik çəkə.
Yurdumun sərhədindən
Qoymaram quş da səkə.
Bəd niyyətlə gələni
Uzağa qovaram mən.
Vətənə xor baxanın
Burnunu ovaram mən.
Gündüzlər sərhəd boyu
Günəş kimi yanaram.
Gecələr sübhə qədər
Keşikdə dayanaram.
Ölməmişəm, sağam mən,
Düşmən bilsin həddini.
Gözüm tək qoruyaram
Vətənin sərhəddini.

I aparıcı: Lakin indi bu gözəlliklər düşmənlərimiz tərəfindən məhv edilmişdir. Torpaq nisgili, el dərdi şairin yaradıcılığına da öz təsirini göstərmiş, şair dərdini şeirlərində əks etdirmişdir.

II aparıcı: Tariximizdə qaranlıq və işıqlı səhifələri əks etdirən günlər və milli bayramlarımız haqqında yazdığı şeirlərində şair uşaqları tariximizi dərindən öyrənməyə çağırır, vətənimizi, millətimizi sevməyi və qorumağı onlara tövsiyə edir.

I aparıcı: Uşaqlar, "Ana dilim" adlı toplu daha maraqlıdır. Burada Əlifba kitabına, cümlə üzvlərinə, nitq hissələrinə, durğu işarələrinə aid şeirlər var. Bu şeirlərin hər biri öyrədici mahiyyət daşıyır. Gəlin uşaqların ifasında bu şeirlərdən bir parça dinləyək.

(Şeirlər söylənilir.)

I aparıcı:

Elin də tarixi var,
Dilin də tarixi var.
Igid odur, xalqının
Keçmişindən söz aça.
Dil -tükənməz xəzinə,
Məna kilid,
Söz – açar.
Söz ləpədir, dalğadır,
Dil ümmandır, dənizdir.
Dilimizin sözləri
Müqəddəsdir, əzizdir.

II aparıcı:

Sözün hər çalarında
Həyatın sehri vardır.
Söz babaların bizə
Qoyduğu yadigardır.
Halal ocağımızda
Közü qorumalıyıq.
Sözü yaşatmalıyıq,
Sözü qorumalıyıq.
Kim ki, sözü unutdu,
O, həyatda uduzdu.
Söz – dil kəhkəşanında
Işıq saçan ulduzdu…

Iaparıcı: Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan Rafiq Yusifoğlunun yaradıcılığındakı səmimiyyət onu yaşından asılı olmayaraq bütün oxucuların sevimlisinə çevirmişdir. Onun yaradıcılığındakı uğurlar cəmlənərək, son nəticədə Rafiq Yusifoğlu sənətkarlığının özəlliyini, təkrarsızlığını və heyrətamizliyini təmin edir. Məhz bu səbəbdən də Rafiq Yusifoğlu poeziyası sevilir.

II aparıcı: Gözəl şairimiz Rafiq Yusifoğlunu yubileyi münasibətilə təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayırıq. Arzu edirik balaca dostlarımız üçün yazdığı kitabların sayı daha da artsın.

S O N

.

**Ədəbiyyat siyahısı**


1. Ana dilim.-B.: Azərbaycan, 2007.-26s.
2. Aylı cığır.- B.: Gənclik, 1992.
3. Ayrılığın qəm hasarı.- B.: Təhsil, 2002.
4. Bahar qatarı.- B.: Azərbaycan, 1999.
5. Bir sevdalı ürəyim var.- B.: Çaşıoğlu, 2003.-396s.
6. Böyük arzuya gedən yol.- B.: Azərbaycan, 2000.
7. Daha uşaq deyiləm.- B.: Şirvannəşr, 2006.- 200s.
8. Dəniz səviyyəsi.- B.: Şirvannəşr, 2005.- 268s.
9. Dünya xalqlarının nağılları.- B.: Azərbaycan, 1998.
10. Ədalətli hakim.- B.: Azərbaycan,2004.
11. Ətirli düymələr.- B.: Gənclik, 1983.- 72s.
12. Günlərimiz, aylarımız.- B.: Azərbaycan, 2003.-47s.
13. Həsrət sazağı.-B.: Şirvannəşr,2005.
14. Xatirə kəcavəsi.- B.: Elm, 1999.
15. Kitabi-Dədə Qorqud.- B.: İşıq, 1999.
16. Meymunlar ölkəsi.- B.: Aərbaycan, 2006.
17. Min dovşan otaran çoban.- B.: Azərbaycan, 2005.
18. Möcüzəli xəzinə.- B.: Azərbaycan, 2000.
19. Namusu qoru.- B.: Azərbaycan, 2007.
20. Sehrli üzük.- B.: Azərbaycan, 2008.- 20s.
21. Sevdalı sabahlar.- B.: Şirvannəşr, 2007.
22. Söz çəməni.- B.: Azərbaycan, 2002.-47s.
23. Şirin yuva.- B.: Azərbaycan, 2004.- 24s.
24. Tanrının ömür payı.- B.: Sumqayıt nəşriyyatı, 2007.-500s.
25. Uşaq ədəbiyyatı.- B.: Şirvannəşr, 2006.-268s.
26. Yollar.- B.: Azərbaycan, 2006.-28s.
27. Zamanın qatarı.- B.: Azərbaycan, 2005.- 20s.



Tərtib edən: Nailə Həşimova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri

Redaktor: Fizurə Quliyeva – F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru